# Azərbaycanla tərəfdaşlığa böyük maraq var



Səbinə XASAYEVA,
Milli Məclisin deputatı.

**Azərbaycan dövlət müstəqilliyi bərpa etdikdən sonra iqtisadi gücün yüksəldilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirildi. Belə tədbirlər dövlətin sərhədləri xaricində də maraqla qarşılanır və dünyanın iri dövlətlərinin diqqətini Azərbaycana yönəldirdi. İqtisadi inkişaf əsasən neft sənayesi ilə bağlı idi, dünyanın inkişaf etmiş dövlətləri Azərbaycanla böyük neft müqavilələri imzalayırdı. Azərbaycanda Bakı Ekspo Mərkəzinin yaradılması, Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, "Baku Energy Forum"u da belə iqtisadi əlaqələrdəndir.**

Prezident İlham Əliyev iyunun 2-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış etdi. Dövlət başçımız "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişdən, genişmiqyaslı islahatların həyata keçirildiyindən, milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasından, tərəfdaş dövlətlərlə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa edilməsindən söz açaraq dedi: "…Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir. Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır. Ötənilki "Bakı Enerji Həftəsi"ndəki çıxışım zamanı mən iştirakçılara məlumat verdim ki, o zaman biz səkkiz ölkəyə təbii qaz ixrac edirdik. Bu gün isə deyə bilərəm ki, həmin ölkələrin sayı 12-yə çatıbdır və bu, hələ də son deyil".

Dövlət başçısı Azərbaycanın hasilatı artırmaq niyyətində olduğunu, müqavilələr imzalandığını, bu prosesin davam etdiyini, 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artacağını, xarici bazarlara təklif ediləcəyini bildirdi. Neft və qazla zəngin olan ölkəmizin xarici investorlarla bərabər "yaşıl enerji"yə sərmayə qoymasının dövlət olaraq azərbaycanın məsuliyyəti olduğunu bildirən Prezident İlham Əliyev dedi: "Bütün bu yaşıl enerji potensialımız sayəsində biz, əlbəttə ki, Azərbaycanın elektrik enerjisinə artan tələbatını təmin edəcəyik, əsasən bərpaolunan enerji hesabına təmin edəcəyik. Bunun nəticəsində bir neçə milyard kubmetr qaza qənaət ediləcəkdir və bu həcm ixrac oluna biləcək".

Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılışı Azərbaycanın enerji sektoruna böyük maraq olduğunu təsdiqləyən tədbir kimi tarixləşdi... ■

Respublika .- 2025.- 4 iyun (№115).- S.7.